THE 21ST CENTURY SHOULD BE THE CENTURY OF DEVELOPMENT OF THE TURKIC WORLD

Aytekin Zeynalova[1]

UDC: 070, 49
LBC: 76.01; 66.0
HoS: 35
DOI: 10.33864/2790-0037.2024.v5.i3.35-47

Keywords:

Karabakh Declaration,
Azerbaijan,
Turkey,
Shusha,
Kazakhstan,
Kyrgyzstan,
Uzbekistan,
Turkmenistan,
Hungary

ABSTRACT

At the initiative of the Republic of Azerbaijan, an informal summit of the Organization of Turkic States on the theme "Building a Sustainable Future through Transport, Connectivity and Climate Action" was held in Shusha on July 6, 2024. The importance of further strengthening and deepening the strategic partnership and using the full potential of the Turkic states in the economic, transport and other fields to formulate the collective strategy of the Organization of Turkic States was one of the priority topics at the meeting.

Another second priority topic was the Karabakh Declaration. The Karabakh Declaration is a historical and regional-global political issue based on a legal basis. At the same time, the Karabakh Declaration contains credible expectations that will contribute to new stability, security, socio-cultural and economic progress in a broad geopolitical context. This important document can also be considered an action program that can ensure the transition to the next stage in the development of Turkish statehood. The Declaration is the closest road map to be followed to adapt the new form of regional cooperation to the existing realities at the global level.

The unity and solidarity of the Turkic world also finds its clear expression in the large-scale reconstruction and reconstruction work carried out in our liberated territories.

As a result, we have witnessed the realization of the relations of brotherhood, friendship and strategic alliance between Azerbaijan, Turkey and the Organization of Turkic States at the highest level. The fact that the summit is being held at a time when global risks and threats are increasing and the crisis of mutual trust is deepening makes it necessary to raise our relations, which are strengthened by the spirit of eternal brotherhood, to a qualitatively new level and to develop them with joint approaches.

---

[1]. Doctor of Philosophy in Political Science, Assoc. Prof.,
Associate Professor in the Department of International Journalism and Information Policy, Baku State University; Baku, Azerbaijan
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072

To cite this article: Zeynalova, A. [2024]. The 21st Century should be the Century of Development of the Turkic World. *History of Science journal*, *5*(3), pp.35-47.
https://doi.org/10.33864/2790-0037.2024.v5.i3.35-47

Article history:
Received: 15.07.2024
Accepted: 02.09.2024

XXI ƏSR TÜRK DÜNYASININ İNKİŞAFI ƏSRİ OLMALIDIR

Aytəkin Zeynalova[1]

UOT: 070, 49
KBT: 76.01; 66.0
HoS: 35
DOI: 10.33864/2790-0037.2024.v5.i3.35-47

Açar sözlər:

Qarabağ Bəyannaməsi,
Azərbaycan,
Türkiyə,
Şuşa,
Qazaxıstan,
Qırğızıstan,
Özbəkistan,
Türkmənistan,
Macarıstan

ANNOTASİYA

Azərbaycan Respublikasının təşəbbüsü ilə 2024-cü il iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının “Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması” mövzusunda qeyri-rəsmi Zirvə görüşü keçirilib. Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, Türk Dövlətləri Təşkilatının kollektiv strategiyasının formalaşdırılması üçün iqtisadi, nəqliyyat və digər sahələrdə türk dövlətlərinin tam potensialından istifadə edilməsinin vacibliyi görüşdə prioritet mövzulardan biri idi.

Digər ikinci prioritet mövzu Qarabağ Bəyannaməsi idi. Qarabağ Bəyannaməsi hüquqi bazaya əsaslanan tarixi və regional-qlobal miqyaslı siyasi məsələdir. Eyni zamanda Qarabağ Bəyannaməsi geniş bir geosiyasi müstəvidə yeni sabitlik, təhlükəsizlik, sosial-mədəni və iqtisadi tərəqqiyə öz töhfəsini verəcək etibarlı gözləntiləri özündə ehtiva edir. Bu mühüm sənəd həmçinin türk dövlətçiliyinin inkişafı istiqamətində növbəti mərhələyə keçidi təmin edə biləcək fəaliyyət proqramı sayıla bilər. Bəyannamə regional əməkdaşlığın yeni formasını qlobal səviyyədə mövcud reallıqlara uyğunlaşdırmaq üçün keçiləcək ən yaxın yol xəritəsidir.

Türk dünyasının birliyi, həmrəyliyi işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində də özünün aydın ifadəsini tapır.

Nəticə olaraq Azərbaycan, Türkiyə və Türk Dövlətləri Təşkilatı arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin ən yüksək səviyyədə reallaşmasının şahidi olduq. Zirvə görüşünün qlobal risk və təhdidlərin artdığı, qarşılıqlı inam böhranının daha da dərinləşdiyi bir vaxtda keçirilməsi əbədi qardaşlıq ruhundan güc alan əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə yüksəltməyi, birgə yanaşmalarla inkişaf etdirməyi bir zərurətə çevirir.

[1]. Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent,
Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072
Məqaləyə istinad: Zeynalova, A. [2024]. XXI Əsr Türk Dünyasının İnkişafı Əsri Olmalıdır. *History of Science jurnalı*, *5*(3), səh.35-47.
https://doi.org/10.33864/2790-0037.2024.v5.i3.35-47

Məqalənin tarixçəsi:
Məqalə redaksiyaya daxil olmuşdur: 15.07.2024
Təkrar işlənməyə göndərilmişdir: 18.08.2024
Çapa qəbul edilmişdir: 02.09.2024

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

XXI ВЕК ДОЛЖЕН СТАТЬ ВЕКОМ РАЗВИТИЯ ТЮРКСКОГО МИРА

Айтекин Зейналова[1]

УДК: 070, 49
ББК: 76.01; 66.0
HoS: 35
DOI: 10.33864/2790-0037.2024.v5.i3.35-47

Ключевые слова:

Карабахская декларация, ОТГ, Азербайджан, Турция, Шуша, Казахстан, Кыргызстан, Узбекистан, Туркменистан, Венгрия

АННОТАЦИЯ

По инициативе Азербайджанской Республики 6 июля 2024 года в городе Шуша состоялась неформальный саммит Тюркского Совета на тему «Создание устойчивого будущего через транспорт, связи и климатическую деятельность». Одним из приоритетных вопросов на встрече было использование полного потенциала тюркских государств в экономической, транспортной и других сферах для дальнейшего укрепления и углубления стратегического партнерства, а также формирования коллективной стратегии Тюркского Совета.

Другим важным вопросом повестки дня стала Карабахская декларация. Карабахская декларация является юридически обоснованным историческим и регионально-глобальным политическим вопросом. Она также включает надежные ожидания, которые будут способствовать созданию новой стабильности, безопасности, социально-культурного и экономического прогресса в широком геополитическом контексте. Этот важный документ может служить программой действий, которая обеспечит переход к следующему этапу развития тюркского государства. Декларация является дорожной картой для адаптации новой формы регионального сотрудничества к глобальным реалиям.

Единство и солидарность тюркского мира также находят четкое выражение в масштабных восстановительных и строительных работах на освобожденных территориях.

В результате мы стали свидетелями реализации братских, дружественных и стратегически союзнических отношений на высшем уровне между Азербайджаном, Турцией и Тюркским Советом. Проведение саммита в условиях нарастающих глобальных рисков и угроз, а также углубляющегося кризиса взаимного доверия делает необходимым повышение качества наших отношений, основанных на вечном братстве, на новый уровень и их развитие через совместные подходы.

[1]. Кандидат политических наук, Доцент,
Доцент кафедры Международная журналистика и информационная политика, Бакинский Государственный Университет; Баку, Азербайджан
E-mail: phd.aytekinzeynalova@gmail.com
https://orcid.org/0000-0002-9737-1072
Цитировать статью: Зейналова, А. [2024]. XXI век должен стать веком развития Тюркского мира. *Журнал History of Science*, *5*(3), с.35-47.
https://doi.org/10.33864/2790-0037.2024.v5.i3.35-47

История статьи:
Статья поступила в редакцию: 15.07.2024
Отправлена на доработку: 18.08.2024
Принята для печати: 02.09.2024

1.Giriş

6 iyul 2024-cü il Azərbaycanın tək mədəniyyət paytaxtı deyil, həm də siyasi diplomatik, ideoloji mərkəzlərindən biri olan Şuşa şəhəri Türk Dövlətləri Təşkilatının qeyri rəsmi Zirvə görüşünə ev sahibliyi etdi.

Əsası 2009-ci il oktyabrın 3-də Azərbaycanda, Naxçıvanda qoyulan Türk Dövlətləri Təşkilatı yeni tarixi dövr yaşayır. Təşkilat beynəlxalq proseslərin fəal iştirakçılarından birinə çevrilməklə həm Türk dünyasının birliyi, həmrəyliyini bütün dünyaya çatdırır, həm də Türk dünyasının gücünü, əsas hədəflərini və bu hədəflərə çatmaq istiqamətində atdığı, eləcə də, yaxın perspektivdə atacağı addımları bir-bir ortaya qoyur, konkret mesajlar verir. Bir sözlə, Türk Dövlətləri Təşkilatı artıq tək Cənubi Qafqaz və Mərkəzi Asiyanın da deyil, bütünlükdə dünyanın gələcək vizyonunu dəyişə biləcək bir struktura çevrilir. Bir mənalı şəkildə demək olar ki, bu prosesin də önündə Azərbaycan və onun lideri Prezident İlham Əliyev gedir.

Xüsusi olaraq qeyd edək ki, Türk Dövlətləri Təşkilatı heç bir quruma, birliyə, yaxud ölkəyə qarşı yönələn struktur deyil. Bu təşkilat sadəcə Türk dünyasını birləşdirmək, onun inkişafını təmin etmək, siyasi, iqtisadi, mədəni əlaqələri gücləndirmək, qədim tarixə söykənən Türk dünyası ailəsinin zəngin ənənələrini qorumaq, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün vasitədir, platformadır. Və bu birliyin, platformanın konsepsiyasında yalnız sülh, təhlükəsizlik, əməkdaşlıq, sağlam əlaqələr durur. Və bu konsepsiyanı, Türk Dövlətləri Təşkilatının əsas prinsiplərini, başlıca ideoloji xəttini Prezident İlham Əliyev dəfələrlə bildirib. 6 iyul 2024- cü il Şuşa sammiti çərçivəsində keçirilən görüşlərdə həmin prinsiplər bir daha xüsusi olaraq vurğulandı. Konkret bəyanatlar verildi. Bildirildi ki, dünyanın birliyə, həmrəyliyə, qarşılıqlı anlaşmaya daha çox ehtiyacı var. Türk dünyası təşkilatı da əslində bu ideoloji xətti əsas götürməklə dünya üçün real və praktik nümunə ortaya qoyur. Bu gün artıq yeni dövrdə, postmüharibə dövründə bu birliyin üzvlərini də bir-birinə tarixi əlaqələrlə yanaşı ilk növbədə məhz bu prinsiplər bağlayır. Hazırda Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Türk Dövlətləri Təşkilatının daimi üzvüdür. Şimali Kipr Türk Respublikası, Türkmənistan və Macarıstan isə bu qurumda müşahidəçi qismində təmsil olunurlar.

Məqalədə ən mühüm konkret addımlardan biri olan Şuşa sammiti və bu sammitin sonunda imzalanmış Qarabağ Bəyannaməsi müzakirə olunacaq. Bəyannamə ilə Azərbaycan-Türkiyə müttəfiqliyinin bütün dünyaya yenidən və çoxşaxəli şəkildə rəsmi bəyan edilməsi, Azərbaycanın siyasi gücü ilə yanaşı, mənəvi dəyərlər baxımından əhəmiyyəti diqqətinizə təqdim olanacaqdır. Bu Zirvə Toplantısına ev sahibliyi edən Şuşa şəhərində imzalanan Qarabağ Bəyannaməsində iqtisadi inteqrasiya, regional infrastrukturun inkişafı, ticarətin asanlaşdırılması, enerji əməkdaşlığı və rəqəmsal transformasiyaya köklənərək regionun iqtisadi potensialının və inkişafının davamlı olmasının dəstəklənməsinə toxunulacaqdır. Bundan əlavə, mövzunun əhəmiyyətini vurğulamaq üçün Azərbaycan ilə TDT arasında ortaya çıxan və ümumi məqsədlərə çatmaqda mühüm addımlar olan bəzi investisiyalar və layihələr də tədqiq olunacaq.

Şüphesiz ki TDT -ye uye devletler arasında ilişki ve güç birlikteliği çok yönlü ve kapsamlıdır. Bunların bir bütün olarak ortaya konulması ise çalışmanın kapsamı açısından değerlidir. Bu nedenle de birlikteliğin önemli bir formel aşaması olan Karabağ Deklarasyonu esas alınarak bu ittifakın önemi açıklanmaya çalışılmıştır.

2.Türk dünyası niyə məhz Şuşada bir araya gəldi?

TDT-nin zirvə görüşünün məhz Şuşada keçilməsi, heç şübhəsiz ki, təsadüfi seçilməyib. Bu seçim, bu önəmli məqam yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının, türkün gücünü ortaya qoydu. O güc ki, ədalətli müharibədə qələbə qazandı. Regionda ekstremizmin kökünü kəsdi, Türkün haqqını bərpa etdi. Bu birinci səbəb.

Türk dünyasının Şuşada toplaşması TDT-nin həmrəyliyinin əsas konsepsiyası olan sülh, əməkdaşlıq, təhlükəsizlik prinsiplərinin praktik təqdimatı idi. Şuşa cəmi 3 ilə yenidən quruldu. Yenidən bərpa olunan xoşbəxt, təhlükəsiz həyatın qayıtdığı, qısa zamanda artıq beynəlxalq konfransların siyasi, mədəniyyət, idman tədbirlərinin keçirildiyi Şuşa bu prinsiplərin real nümunəsidir. Bu ikinci səbəb.

Üçüncü səbəb isə birlik, həmrəylik nümunəsidir. Şuşa tək Azərbaycanın deyil bütövlükdə Türk dünyasının həmrəylik şəhəri, həmrəylik simvoludur. Türk dövlətlərinin başçılarının ayrı-ayrı vaxtlarda işğaldan azad edilmiş ərazilərimizə, Qarabağa, Şuşaya səfəri olsa da onların bu torpaqda bir araya gəlməsi qürurverici olmaqla yanaşı, özündə mühüm çağırışları ehtiva edir. Bu, türk dövlətləri arasında birliyin, qardaşlığın və dostluğun məhz Şuşadan dünyaya təqdimatıdır. Bu torpaqların sahibi bizik və burada əbədi olacağıq. [Rəhimzadə, 2024] Real nümunə Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin Qarabağın xüsusilə Şuşanın bərpası prosesində fəal iştirakı, Türk dünyasının yenidən qurma prosesində fəal rol oynaması ümumi prosesə həm maddi, həm də mənəvi cəhətdən dəstəyidir. Türk liderlərinin bir çoxu Şuşada olduqları zaman Şuşadan konkret mesajlar veriblər. Şuşanın maddi mədəniyyət nümunələrini ziyarət ediblər. Zirvə görüşü çərçivəsində Prezident İlham Əliyev ilə birgə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Şuşada 23 binadan ibarət birinci yaşayış kompleksi və Aşağı Gövhər ağa məscidinə baş çəkdilər. Bütün bunlar özlüyündə bir daha Türk dünyasının birlik, həmrəyliyinin simvoludur. Müasir dövrün çağırışları qlobal proseslərə yeni yanaşma tələb edir. Daha güclü, daha həmrəy olmağı zərurət kimi önə sürür. TDT də bu missiyanı yerinə yetirmək istiqamətində uğurla irəliləyir və praktik addımlar atır. Lakin bu birliyi yalnız siyasi, ideoloji təhlükəsizlik baxımından təhlil etmək, əlbəttə ki, doğru olmazdı. İstənilən birlik o zaman güclü və uzun ömürlü olur ki, onun əsasında həm də iqtisadi faktorlar dayansın. Türk Dünyasına gəlincə burada iqtisadi potensial kifayət qədər zəngindir. Konkret faktları qeyd etsək; hazırda TDT-yə daxil olan ölkələr 155 milyon əhaliyə sahib olmaqla 4,5 milyon km^2 coğrafi ərazini əhatə edir və 1.5 trilyon dollara yaxın nominal ümumdaxili məhsula sahib olmaqla dünyada 13-cü yerdə qərarlaşır. Əgər Türk Dövlətlərini vahid dövlət strukturu kimi götürsək ümumdaxili məhsulun həcminə görə dünyada 7-ci ən böyük ölkə hesab olunar. Hazırda Türk Dövlətləri arasında xarici ticarət dövriyyəsinin həcmi təxminən 45 milyard dollar təşkil edir .Bu onların ümumi ticarət dövriyyəsinin 4 faizə yaxını deməkdir. Ancaq, potensial bundan ən azı 10 dəfə böyükdür. Bundan əlavə ölkəmizin 2023-cü ildə Türk Dövlətləri ilə ticarət dövriyyəsinin həcmi əvvəlki illərlə müqayisədə 70 %-dən çox artaraq 8 milyard dollara çatmışdır. Məsələn, Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi illik müqayisədə 45%, Qazaxıstanla 35%, Türkmənistanla 4 dəfə, Qırğızıstanla 5 dəfə artıb. Lakin, bu da bir daha deyirik son deyil. Ümumiyyətlə Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsinin yaxın illərdə 20 milyard dollarıdək artırılması hədəflənir. Və bu hədəfə doğru konkret praktik addımlar atılır. Yalnız bir fakt, TDT-yə üzv və müşahidəçi ölkələrinə ümumibaxış statistikasında göstərilib ki 2024-cü ilin birinci rübündə TDT-nin ümumi məhsulu 518.4 milyard dollar, ticarət dövriyyəsi 285.7 milyard dollar təşkil edir. [Prezident.az, 2024] Yəni bütün bunlar reallıqdır. Türk dünyasının ortaya qoyduğu bir reallıqdır. Bu reallığın davamı və konkret hədəfi var. Nədir bu hədəflər? Türk dünyasını qarşıda daha nələr hansı, prioritet məsələlər gözləyir? Bax bu suallara Şuşada keçirilən TDT qeyri- rəsmi zirvə görüşündə tam aydınlıq gətirildi.

3.Türk birliyinin Şaşada yazdığı növbəti tarix.

Postmüharibə dövrünə aid yeni tarixin mühüm səhifəsi yazılır. Prezident İlham Əliyev istər andiçmə mərasimində dediyi, istərsə də hələ ilin əvvəlində yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi yeni dövrə aid missiyanın mühüm istiqamətlərini ortaya qoyur.

Həmin istiqamətlərə əsaslanmış addımlardan biri də Prezident İlham Əliyevin ölkənin artıq ikinci diplomatiya paytaxtına çevrilmiş, Zurvə görüşünə ev sahibliyi edən Şuşada bu mötəbər görüşə təşrif buyurmuş qonaqları qəbul etməsi oldu. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş Naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı, TDT Baş katibi *Kubanıçbek Ömüralıyev*i qarşılayıb. [Organization of Turkic States, 2024] Zirvə görüşündə iştirak edən bütün qonaqlar məhz Şuşadan öz mesajlarını bütün dünyaya ünvanladı.

Gəlin görək nədir bu mesajlar?

Türk Dövlətləri Türk dünyasının gələcəyini necə görür?

Əsas prioeritet vəzifələr nələrdən ibarətdir?

Prezident İlham Əliyev açılışda, “TDT dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara Dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və bir etnik köklərə malik olmağı ölkələrimizi sıx birləşdirir” fikirlərini səsləndirdi. [Takvim.com.tr, 2024] “Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır”. [Prezident.az, 2024]

Bir cümlənin üzərində ayrıca dayanaq. "TDT dünya miqyasında güc mərkəzlərindən birinə çevrilməlidir" cümləsi. Prezidentin işlətdiyi bu ifadə heç şüphəsiz ki, indiki beynəlxalq münasibətlər sistemində yeralan tendensiyaları nəzədə tutur və planetin gələcəyi üçün özünəməxsus stabillik formulunu müəyyənləşdirir. Müşahidələr də göstərir ki, ötən əsrin ortalarında və ikinci yarısında yaradılan bir çox qurumlar - konkret olaraq BMT, Avropa İttifaqı, daha sonra Avropa şurası və ATƏT kimi təşkilatlar hazırda ciddi böhran yaşayır. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması ilə bağlı üzərilərinə düşən öhdəlikləri yerinə yetirməkdə çətinlik çəkirlər. Bəzi qurumlar isə böyük güclərin əlində siyasi alət rolunu oynayır və şəxsi ambisiyaların girovuna çevrilib. Bir sözlə beynəlxalq hüquq böhranla üz-üzə qalıb və Qərb dünyası vaxtilə özünün yaratdığı demokratiya meyarlarına əməl edə bilmir. İkili standartları fəaliyyət strategiyasının mərkəzinə gətirir. Məhz həmin o ikili standartların nəticəsi olaraq təcavüzkar Ermənistan Azərbaycanın 20 faiz torpağını 30 il işğal altında saxladı. Ermənilər BMT təhlükəsizlik şurasının qətnamələrinə əməl etməkdən boyun qaçırtdığı üçün Azərbaycan beynəlxalq hüququ öz gücü hesabına bərpa etməli oldu.

Şuşanın 1992-ci ilin mayında Ermənistan tərəfindən işğal edilməsi Azərbaycan xalqının böyük faciəsi idi. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmamış, həmişə Şuşaya və işğal altında olan digər ərazilərimizə qayıtmaq arzusu ilə yaşamış və buna nail olmuşdur. [Prezident.az, 2024]

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin edildikdən sonra Şuşada keçirilən zirvə toplantısının rəmzi məna daşıdığını vurğulayan Prezident İlham Əliyev Qarabağın tacı olan Şuşanın hər zaman dövlətimizin və ümumilikdə regionun mədəni-siyasi həyatının mühüm mərkəzlərindən olduğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın öz torpaqlarının işğalı ilə heç vaxt barışmadığını vurğulayaraq, Azərbaycan ordusunun 30 illik işğala II Qarabağ müharibəsində son qoyduğunu xatırlatdı. [Anadolu ajansı, 2024]

İndi Cənubi Qafqaz postmuharibə dövrünü yaşayır və Azərbaycanın yaratdığı yeni reallıqlar bölgənin inkişafının əsas drayveri kimi qəbul olunur. Ona görə ki, rəsmi Bakı

muharibə səhifəsinin əbədi qapadılması və iqtisadi əməkdaşlığın qurulması təşəbbüsü ilə çıxış edir, zəngin təbii resursları, onların nəqli üçün müasir infrastrukturu olan Mərkəzi Asiyanı və Qafqazı, Aralıq və Qara Dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizlərinin rentabelli işləməsinə çalışır. Şüphəsiz, qlobal nəqliyyat enerji xəritəsində ciddi dəyişikliklərin baş verdiyi indiki şəraitdə Türk dövlətləri arasında birliyin gücləndirilməsi, həmrəyliyin təmin olunması regional tərəqqinin əsas qarantı sayılmalıdır. Bir sözlə prezidentin də vurğuladığı kimi XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır. O ki qaldı Şuşanın Türk dünyasının birliyindəki roluna: 2021-ci ildə şəhərin Azərbaycanın mədəniyyət paytaxtı seçilməsi, 2022-ci ilin Azərbaycanda Şuşa ili elan edilməsi, TÜRKSOY tərəfindən Şuşa şəhərinin 2023-cü il üçün Türk dünyasının mədəniyyət paytaxtı, İCESCO tərəfindən isə 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı elan olunması Azərbaycanın bu dilbər guşəsinin Türk birliyinin simvoluna çevrildiyini əyani şəkildə ortaya qoyur.

Prezident İlham Əliyev: "Bu gün Qarabağ və Şərqi Zəngəzurda "Böyük Qayıdış" Proqramı icra olunur. Ermənistan işğal dövründə bu ərazilərdə bütün şəhər və kəndləri yerlə-yeksan etmişdir. İndi isə bu torpaqlara həyat qayıdır."Böyük Qayıdış" Proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Bu ilin sonuna qədər 20 min insan azad edilmiş torpaqlara qayıdacaq". [Prezident.az, 2024]

Təbii, Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri bir daha deyirik, qardaşlıq həmrəyliyinin təzahürüdür və bu gün Qarabağda, Şərqi Zəngəzurda davam edən quruculuq prosesində Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızistan və hətta Macarıstanın yaxından iştirak etməsi məhz həmrəyliyin praktik şəkildə ortaya qoyulmasıdır. Ancaq həmrəyliyi tələb edən digər və kifayət qədər əsas prioritetlərdən biri də iqtisadi imkanlardır. İqtisadı istiqamətdə Prezident İlham Əliyev hansı hədəfləri müəyyənləşdirdi? Dövlət başçısı TDT-nin cari büdcəsi və strukturunu nəzərdə tutulan hədəflərin reallaşdırılması üçün yetərli hesab etmir. Mövcud imkanlar qarşıda duran qlobal hədəflərin reallaşması üçün kifayət deyil. Məhz buna görə də Azərbaycan katibliyin hesabına 2 milyon dollar məbləğində vəsait köçürüb. Üstəlik 2024-cü ilin yanvar-mart ayları üçün Azərbaycanın TDT-yə üzvləri ilə ticarət dövriyyəsi 1 milyard 709,1 milyon dollar təşkil edib. Bu ölkəmizin ümumi ticarət dövriyyəsinin 17,6 faizinə bərabərdir. Məlumat üçün deyək ki, 2023-cü ildə dövriyyə 8 milyard 208 milyon dollar təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 23,7 faiz çoxdur. Lakin potensial imkanlar daha böyükdür və Prezident İlham Əliyev bu imkanların realizəsi üçün konkret fəaliyyət istiqamətləri ortaya qoyub.

4.Azərbaycanın TDT-e çərçivəsində üzərinə götürdüyü öhdəliklər

Prezident İlham Əliyev: "Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi qarşımızda duran prioritet məsələlərdən biridir. Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyəti Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırılıb. Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir". [Prezident.az, 2024]

Zirvə toplantısının həsr edildiyi nəqliyyat əlaqələri, iqlim dəyişikliyi kimi çox vacib mövzular sözügedən sahələr üzrə Türk dövlətləri arasında əməkdaşlığın daha da güclənməsinə hesablanır və Azərbaycan bu prosesdə üzərinə düşən bütün öhdəliklərə sadiqdir. Məsələn, hazırda Bakı gəmiqayırma zavodunda 6 gəmi inşa edilir. Gələn il Laçında 9-cu Beynəlxalq Hava limanı istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükgötürmə qabiliyyəti isə 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək. Beləliklə üzv ölkələrin, o cümlədən Azərbaycanın sahib olduğu iqtisadi resurslar TDT-nin beynəlxalq status qazanmasını şərtləndirir. Bu ilin mayında İstanbulda Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan

Rəqəmsal İpəkyolu layihəsi türk dünyasının adına yazılacaq mühüm təşəbbüslər sırasındadır. Ən nəhayət Cop29 iqlim sammiti Azərbaycan kimi TDT-nin də qlobal miqyasda əsas söz sahibinə çevrilməsinə çox ciddi təkan verdi.

Prezident İlham Əliyev: “COP29-a sədrlik və bu tədbirin Bakıda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın bariz nümunəsidir. 200-ə yaxın ölkə bizim namizədliyimizi yekdilliklə dəstəkləmişdir. Azərbaycan Qoşulmama Hərəkatında 4 il sədrliyi dövründə əldə etdiyi təcrübədən istifadə edərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin gücləndirilməsi, konsensusa nail olunması üçün səylərini əsirgəməyəcək”. [Prezident.az, 2024]

Türk dünyası nümayiş etdirdiyi güc və siyasi iradə hesabına bu gün beynəlxalq proseslərin vacib subyektlərindən birinə çevrilməkdədir. Türk Dövlətləri arasında davam edən inteqrativ əlaqələr, humanitar, təhsil, mədəniyyət və digər istiqamətlərdə qurulan effektiv təmaslar, habelə, ölkə rəhbərlərinin qardaşlıq dəstəyi böhran keçirən digər təşkilatlardan fərqli olaraq TDT-nin böyük gələcəyə sahib olduğundan xəbər verir. [Xalq Qəzeti, 2024] Ötən ilin əvvəlində Türkiyədə baş verən zəlzələ sonrası fəlakət fövqəladə halların idarə edilməsi və humanitar yardım mövzusunda Fövqəladə Zirvə görüşünün keçirilməsi, Qazaxıstan, Qırğızıstan, Özbəkistanın Qarabağ ərazilərində öz vəsaitləri hesabına məktəb, incəsənət mərkəzi və məscid inşa etmələri, Cənubi Qafqaz və Mərkəzi Asiyanı birləşdirən nəqliyyat enerji xətlərinin məhz Türk dövlətlərinin ərazisindən keçməsi, Türk dünyasının həmrəyliyi faktoru Dünya Birliyinin yaxın zamanlarda TDT ilə hesablaşacağına hər hansı şübhə yeri qoymur. Buna böyük inam var və türk liderləri Şuşa Zirvəsində Azərbaycanın həmin istiqamətdəki səylərini yüksək dəyərləndirdilər.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart *Tokayev:* “Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun əhəmiyyətini vurğulayan Qazaxıstan Prezidenti bildirdi: “Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun bütün potensialı istifadə olunmalıdır. Bu gün bu istiqamətdə konteyner daşımalarının həcmi kəskin şəkildə artıb. Biz nəqliyyat daşımalarının vaxtını azaltmaq üçün multimodal rəqəmsal platforma, rəqəmsal ticarət dəhlizi yaratmışıq. Bu istiqamətdə Azərbaycanla sıx əməkdaşlıq edirik”. [Prezident.az, 2024]

Qırıöızıstan prezidenti Sadır Japarov: “Sevindirici haldır ki, bu ilin noyabr ayında qardaş Azərbaycan ən vacib qlobal forumlardan birinə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi edəcək. Əminəm ki, Azərbaycanın COP29-a sədrliyi qarşıdan gələn konfransın gündəliyində duran məsələlərin, o cümlədən iqlim maliyyələşməsini əhəmiyyətli dərəcədə irəliyə apara biləcək”. [Prezident.az, 2024]

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev: “Hazırda tarixi ədalətin bərpa olunduğu bir zamanda və Azərbaycanın azad etdiyi Qarabağda hörmətli İlham Əliyevin rəhbərliyi ilə aparılan nəhəng quruculuq işlərinin, memarlıq və mədəni abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlərin əyani şahidi oluruq. Sizin kimi dəyərli qardaşımızın belə möhtəşəm işləri yaxın dostlarınız olaraq bizləri sonsuz dərəcə sevindirir və qürurlandırır. Birgə səylərimiz və xüsusi marağımızla bu bənzərsiz şəhərin nümunəsində bütün Qarabağın gələcəkdə əbədi dostluğumuzun həqiqi rəmzinə çevriləcəyinə inanıram”. [Prezident.az, 2024]

Türkiyənin vitse prezidenti Cevdet Yılmaz: “Cənubi Qafqazda sülh, sabitlik və rifah yolunda tarixi bir fürsət pəncərəsinin açılması olaraq gördük. Bu çərçivədə müzakirə prosesi böyük səy və həssaslıqla aparılan Azərbaycan və Ermənistan arasındakı sülh müqaviləsinin ən qısa müddətdə imzalanması ilə Cənubi Qafqazda genişmiqyaslı regional həllin qarşımızdakı ən böyük əngəli ortadan qaldıracağına inanıram. Cənubi Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olması təkcə bölgə ölkələri üçün deyil, regional nəqliyyat xətlərinin açılacağı səbəbindən qlobal təhlükəsizlik və kommunikasiyalar baxımından da

böyük önəm daşıyır. Bu xətlərin açılması regional əməkdaşlığı gücləndirərək Orta Asiya, Qara dəniz və Xəzər dənizi hövzələri də daxil olmaqla, bütün Türk dünyası üçün böyük imkanlar yaradacaq, yeni fürsətlər doğuracaq”. [Prezident.az, 2024]

Macarıstanın Baş naziri Viktor Orban: “Kədərli tarixi təcrübələrimizə əsaslanaraq, sülhə hörmət naminə qlobal əməkdaşlığı bərpa etmək üçün ünsiyyət və qarşılıqlı fəaliyyət dövrünə üstünlük verərdik. Bu mübarizədə sizə güvənirik. Biz Türk Dövlətləri Təşkilatına Qərb ilə Şərq arasında əməkdaşlıq üçün çox vacib bir təşkilat kimi baxırıq”. [Prezident.az, 2024]

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev: “Türk Dövlətləri Təşkilatının 10-cu Sammitində dövlət başçıları heyətin və büdcəmizin artırılması təklifini dəstəklədilər. Sizin bu gün qeyd olunan məsələlərlə bağlı qəbul etdiyiniz qərar, sözsüz ki, təşkilatımızı daha da gücləndirəcək. Bu mənada biz Azərbaycan Prezidenti Zati-aliləri cənab Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın verdiyi töhfəni - büdcəmizə 2 milyon ABŞ dollarının ayrılmasını yüksək qiymətləndiririk”. [Prezident.az, 2024]

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar: “Türk dünyasının mənəvi paytaxtı Şuşada, azad olunmuş bu gözəl torpaqlarda Azərbaycan Prezidenti İlham Əliyevin ev sahibliyi ilə bu Zirvə görüşündə aranızda olmaqdan duyduğum böyük məmnuniyyəti təkrar bildirmək istəyirəm. Əvvəlcə, bu günə qədər Şimali Kipr Türk Cümhuriyyətinə verdiyi böyük dəstəyə və bizi Şuşa Zirvəsinə dəvət etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə çox təşəkkür edirəm”. [Prezident.az, 2024]

"Şuşa Azərbaycanın 44 günlük Vətən müharibəsində şanlı qələbəsinin simvoludur”. Türk Dünyasının beynəlxalq siyasətin maraq mərkəzlərindən birinə çevrildiyini bildirən Türkiyənin Xarici İşlər Naziri Hakan Fidan, "Qlobal güc rəqabətinin coğrafiyamıza yayılmasının qarşısını almaq üçün sıralarımızı sıxlaşdırmalı və imkanlarımızı ortaq rifahımız, inkişafımız üçün səfərbər etməliyik. Bu yanaşma əsasında regional sahiblənmə və regional əməkdaşlıq bizim birgə işimizin iki əsas prinsipini təşkil edir” ifadılırini də səsləndirdi. [Anadolu Ajansı, 2024]

Göründüyü kimi Prezident İlham Əliyevin türk dünyasının inteqrasiyası və inkişafında oynadığı rol da yüksək qiymətləndirilir. TDT-yə üzv ölkələr və onların rəhbərləri dövlət başçımızın birlik və həmrəylik təşəbbüslərini, sülh və təhlükəsizlik sahəsində əməkdaşlıq çağırışlarını nəinki bölüşür, həmçinin təşkilatın daha da inkişafı və nüfuzlu beynəlxalq aktora çevrilməsi üçün səy göstərirlər. Və şübhəsiz ki, Şuşada Azərbaycan liderinin gördüyü işlər, irəli sürdüyü ideyalar və təşəbbüslər, türk dünyasına ünvanladığı konkret mesajlar təşkilatın gələcək inkişaf trayektoriyasının müəyyən edilməsində özünəməxsus yol xəritəsi rolunu oynayacaq.

5.Qarabağ Bəyannaməsi

TDT-nin qeyri-rəsmi zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsi məhz bu hədəflərin reallaşdırılmasına birbaşa xidmət edir. Şuşada daha bir tarix yazıldı. Həm türk dünyasının, həm də TDT-nin tarixində yeni bir ənənənin əsası qoyuldu. İlk dəfə olaraq təşkilatda üzv dövlətlərin başçıları qeyri-rəsmi zirvə görüşündə bir araya gəldi və bu təşəbbüs də Azərbaycan Prezidenti İlham Əliyevə məxsusdur. Türk liderləri məhz Prezident İlham Əliyevin çağırışı ilə Şuşada bir araya gəlmək ilə Azərbaycanla bir olduqlarını, həmrəy olduqlarını bir daha faktiki bütün dünyaya çatdırdılar. Türk liderləri Qarabağ Bəyannaməsinə imza atmaqla "Qarabaq Azərbaycandır!" reallığına imza atdılar. [Məmmədov, 2024] Ümumiyyətlə, TDT-nin Şuşa toplantısından dünyaya verilən mesajlar, xüsusən ev sahibi Prezident İlham Əliyevin həmçinin dost və tərəfdaş ölkələrin lidetlərinin açıq mətnə toxunduğu mühüm məqamlar, ilk növbədə də Qarabaq Bəyannaməsinin imzalanması faktı özlüyündə kifayət qədər tarixi və strateji əhəmiyyət kəsb etməklə yanaşı faktiki bütün məsələlərə də aydınlıq gətirir. O məsələlər ki, yalnız Türk dünyasını deyil,

Ermənistan başda olmaqla regionda yeni gərginlik, müharibə ocağı yaratmağa, sülhə və təhlükəsizliyə açıq zərbələr vurrmağa çalışan bəzi Avropa ölkələrini də əhatə edir. Bir sözlə həm dost, həm düşmən cəbhəsində dayanan hər kəsi düşündürür və narahat edirdi.

Beləliklə verilən mesajlar, xüsusən Qarabağ Bəyannaməsinin imzalanması o reallığı ortaya qoyur ki:

1. Türk dünyası Azərbaycanın ədalətli müharibədə qazandığı tarixi qələbəni dəstəkləyir, yaxud daha dəqiq desək dəstəkləməyə davam edir və Türk dünyası azad Qarabağ reallığında, postmüharibə reallığında məhz Azərbaycanın yanındadır.

2. Türk dünyası özünü yeni dövr prioritetlərinə kökləyir ki, həmin prioritetlər sırasında da ilk növbədə Türk dünyasının iqtisadi potensialından maksimum istifadə dayanır. Başlıca hədəf isə heç şübhəsiz ki, orta dəhlizdir. O dəhliz ki, Qarabağ və Şərqi Zəngəzurun yalnız yenidən qurulması deyil, eləcə də davamlı inkişafı və Türk dünyasına inteqrasiyası üçün, bütövlükdə Türk dünyasını birləşdirəcək yeni nəqliyyat arteriyasının reallaşması və *multimodal* nəqliyyat marşrutlarının inkişafı baxımından önəmlidir və strateji əhəmiyyət kəsb edir. Başqa sözlə yeni tarixi dönəmin mühim səhifələrini izləyirik. Daha dəqiq desək bir zamanlar, elə ən yaxın tarixədək arzu etdiyimiz Türk əsrinin, Türk dünyasının və Türk həmrəyliyinin reallaşmasının şahidləriyik. [Məmmədov, 2024]

Zirvə görüşü və imzalanan Qarabağ Bəyannaməsi Türk dünyasının iqtisadi əməkdaşlığının gücləndirilməsi istiqamətində mühüm addımdır.

Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsinin imzalanmasının üçüncü ildönümündə Şuşada keçirilən zirvədə liderlərin verdiyi bəyanatlar və qəbul edilən qərarlar "Türk dünyasına baxış-2040" çərçivəsində iqtisadi inteqrasiyanın dərinləşdirilməsini hədəfləyir. Qarabağ Bəyannaməsi türk dövlətləri arasında ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün mühüm prinsipləri özündə ehtiva edir. Bəyannamə çərçivəsində həyata keçiriləcək tədbirlər ölkələr arasında ticarət maneələrinin azaldılması, nəqliyyat və logistika infrastrukturunun təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması istiqamətində vacib addımların atılmasını nəzərdə tutur.Türk İnvestisiya Fondunun yaradılması isə bu istiqamətdə atılan ən mühüm addımlardan biridir və fondun fəaliyyəti sayəsində regional ticarət və iqtisadi əməkdaşlıq yeni səviyyəyə qalxacaq. [Cəfərova, 2024]

Bəyannamə mühüm strateji əhəmiyyət daşımaqla üzv dövlətlər arasında tərəfdaşlığı möhkəmləndirəcək, daha iddialı məqsədlərə çatmaq üçün birgə səylərin artırılmasına və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsinə gətirib çıxaracaq. [Azerbaycan News, 2024]

6.Nəticə

Reallıq bax bunlardan ibarətdir və bu reallığın aparıcı qüvvəsi də Azərbaycan, onun sinasında Prezident İlham Əliyevdir. Dediyimiz kimi bir zamanlar Türk dünyası, Türk həmrəyliyi xoş bir arzu idi. Lakin, bu gün bu arzu reallaşır. Nəinki reallaşır, faktiki qlobal gücə çevrilir. Elə bir gücə ki, ondan artıq narahat olmağa başlayıblar. Xüsusən, qonşu Ermənistan başda olmaqla Avropadan, yaxud okeanın o tayından, uzaq Amerikadan bəzi narahat açıqlamalar eşidirik. Yaşasın Türk dünyası. O dünya ki, ədalətin, haqqın tərəfindədir və o dünya ki, yeni reallıqları, Qarabağlı Azərbaycan reallıqlarını həm dəstəkləyir, həm də özünü bu reallığın üzvü hesab edir. Bu reallığın ən parlaq nümunəsi isə yenidən qurulan azad Qarabağdır. Azərbaycan siyasətinin, iqtisadiyyatının, Azərbaycan diplomatiyasının əsası da məhz bu nümunələr, "sözümüz imzamızdır" prinsipi üzərində qurulub və bu prinsip Prezident İlham Əliyevin atdığı hər addımda çox aşkar hiss olunur.

Türk dünyasının birliyinə Azərbaycanın verdiyi töhfələr bütün Türk dövlətləri tərəfindən təqdir edilir. Prezident İlham Əliyev çıxışında bir daha vurğuladı ki, Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və TDT-nin gücləndirilməsi Azərbaycanın

xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.

TDT-nin beynəlxalq nüfuzunun artması Azərbaycanın əsas hədəfləri sırasındadır. Şuşa Zirvə görüşündə "Türk Dövlətləri Təşkilatının Katibliyinin heyətinin və büdcəsinin artırılmasına dair qərar" imzalanması da bu məqsədə xidmət edir.

Zirvə görüşü və imzalanan Bəyannamə iqtisadi inteqrasiya, regional infrastrukturun inkişafı, ticarətin asanlaşdırılması, enerji əməkdaşlığı və rəqəmsal transformasiyaya diqqət yetirməklə regionun iqtisadi potensialını daha da açmağı və davamlı inkişafı dəstəkləyir. Şuşada qəbul edilən qərarlar "Türk dünyasına baxış-2040" sənədi çərçivəsində iqtisadi inteqrasiyanın və əməkdaşlığın gücləndirilməsi üçün mühüm bir mərhələdir. Türk dövlətləri arasında ticarət və investisiya mühitinin təkmilləşdirilməsi, nəqliyyat və logistika infrastrukturlarının inkişafı, qarşılıqlı ticarətin və iqtisadi əlaqələrin daha da güclənməsinə töhfə verəcək. Bu tədbirlər Türk dünyasının qlobal iqtisadi sistemdə daha mühüm rol oynamasını təmin edəcək.

Qəbul edilən qərarlar türk dünyasının birliyinin daha da möhkəmləndirilməsinə xidmət edəcək. Çıxışlarda da vurğulandı ki, ötən qısa dövrdə üzv ölkələrlə 30-dan çox önəmli sahədə qarşılıqlı faydalı və çoxşaxəli əməkdaşlıq qurulub. Bu Zirvə görüşünün qlobal risk və təhdidlərin artdığı, qarşılıqlı inam böhranının daha da dərinləşdiyi bir vaxtda keçirilməsi əbədi qardaşlıq ruhundan güc alan əlaqələrimizin keyfiyyətcə yeni səviyyəyə yüksəltməyi, birgə yanaşmalarla inkişaf etdirməyi bir tələbə çevirir. [AZƏRTAC, 2024]

ƏDƏBİYYAT

1. AZƏRTAC. (2024, 6 İyul). *Qarabağ Bəyannaməsi Türk dünyasının birliyinin daha da möhkəmləndirilməsinə xidmət edəcək.* Əldə edildi: https://azertag.az/xeber/qarabag_beyannamesi_turk_dunyasinin_birliyinin_daha_da_mohkemlendirilmesine_xidmet_edecek____serh-3087942
2. Azərbaycan.news.az. (2024, 7 İyul). *Qarabağ Bəyannaməsi TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsində mühüm rol oynayacaq.* Əldə edildi: https://www.azerbaijan-news.az/az/posts/detail/qarabag-beyannamesi-tdt-nin-vezife-ve-meqsedlerinin-semereli-heyata-kecirilmesinde-muhum-rol-oynayacaq-1720422484
3. Anadolu Ajansı. (2024, 6 Temmuz). *Dışişleri Bakanı Fidan: İmkanlarımızı müşterek refahımız için kullanmalıyız.* Erişildi: https://www.aa.com.tr/tr/politika/disisleri-bakani-fidan-imkanlarimizi-musterek-refahimiz-icin-kullanmaliyiz/3267782
4. Anadolu Ajansı. (2024, 6 Temmuz). *Azerbaycan Cumhurbaşkanı Aliyev: TDT, dünya çapında güç merkezlerinden birine dönüşmelidir.* Erişildi: https://www.aa.com.tr/tr/dunya/azerbaycan-cumhurbaskani-aliyev-tdt-dunya-capinda-guc-merkezlerinden-birine-donusmelidir/3267806
5. Cəfərova, V. (2024, 7 İyul). *Qarabağ Bəyannaməsi və Türk dünyası iqtisadi əməkdaşlığının gələcəyi.* Əldə edildi: https://ereforms.gov.az/az/ekspert-yazilari/qarabag-beyannamesi-ve-turk-dunyasi-iqtisadi-emekdasliginin-geleceyi-104
6. Xalq Qəzeti. (2024, 9 İyul). *Qarabağ Bəyannaməsi Türk dünyasını yeni hədəflərə yönləndirir.* Əldə edildi: https://xalqqazeti.az/az/iqtisadiyyat/185993-qarabag-beyannamesi-turk-dunyasini-yeni
7. Prezident.az. (2024, 6 İyul). *Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.* Əldə edildi: https://president.az/az/articles/view/66415
8. Rəhimzadə, V. (2024, 7 İyul). *Şuşa Zirvə görüşü və imzalanan Qarabağ Bəyannaməsi türk dünyasının birliyini daha da gücləndirəcək.* Əldə edildi:

https://azertag.az/xeber/vuqar_rehimzade_susa_zirve_gorusu_ve_imzalanan_qarabag_beyannamesi_turk_dunyasinin_birliyini_daha_da_guclendirecek-3086198
9. Türk Devletleri Teşkilatı. (2024, 6 Temmuz). *Türk Devletleri Teşkilatı Devlet Başkanları Gayrıresmi Zirvesi Azerbaycan'ın Şuşa kentinde gerçekleştirildi.* Erişildi: https://www.turkicstates.org/tr/haber/turk-devletleri-teskilati-devlet-baskanlari-gayriresmi-zirvesi-azerbaycanin-susa-kentinde-gerceklestirildi
10. Takvim.com.tr. (2024, 6 Temmuz). *Şuşa'da 'Türk' zirvesi! Karabağ Deklarasyonu imzalandı.* Erişildi: https://www.takvim.com.tr/dunya/susada-turk-zirvesi-karabag-deklarasyonu-imzalandi-5890223
11. Məmmədov, R. (2024, 7 İyul). *Həftə verlişi.* Əldə edildi: https://www.youtube.com/live/a_kK7wFC1jk?si=GR6Rs2hCogRGjkNC

REFERENCES

1. AZERTAC. (2024, July 6). *The Karabakh Declaration will serve to further strengthen the unity of the Turkic world.* Retrieved from https://azertag.az/xeber/qarabag_beyannamesi_turk_dunyasinin_birliyinin_daha_da_mohkemlendirilmesine_xidmet_edecek___serh-3087942 (In Azerbaijani)
2. Azerbaycan News (2024, July 7). *The Karabakh Declaration will play an important role in the effective implementation of the OTS's tasks and goals.* Retrieved from https://www.azerbaijan-news.az/az/posts/detail/qarabag-beyannamesi-tdt-nin-vezife-ve-meqsedlerinin-semereli-heyata-kecirilmesinde-muhum-rol-oynayacaq-1720422484 (In Azerbaijani)
3. Anadolu Agency. (2024, July 6). *Foreign Minister Fidan: We must use our opportunities for our mutual prosperity.* Retrieved from https://www.aa.com.tr/tr/politika/disisleri-bakani-fidan-imkanlarimizi-musterek-refahimiz-icin-kullanmaliyiz/3267782 (In Turkish)
4. Anadolu Agency. (2024, July 6). *President Aliyev of Azerbaijan: The OTS must become one of the global centers of power.* Retrieved from https://www.aa.com.tr/tr/dunya/azerbaycan-cumhurbaskani-aliyev-tdt-dunya-capinda-guc-merkezlerinden-birine-donusmelidir/3267806 (In Turkish)
5. Jafarova, V. (2024, July 7). *The Karabakh Declaration and the future of economic cooperation in the Turkic world.* Retrieved from https://ereforms.gov.az/az/ekspert-yazilari/qarabag-beyannamesi-ve-turk-dunyasi-iqtisadi-emekdasliginin-geleceyi-104 (In Azerbaijani)
6. Xalq Qazeti. (2024, July 9). *The Karabakh Declaration directs the Turkic world towards new goals.* Retrieved from https://xalqqazeti.az/az/iqtisadiyyat/185993-qarabag-beyannamesi-turk-dunyasini-yeni (In Azerbaijani)
7. Prezident.az. (2024, July 6). *An informal summit of the heads of state of the Organization of Turkic States was held in Shusha.* Retrieved from https://president.az/az/articles/view/66415 (In Azerbaijani)
8. Rahimzade, V. (2024, July 7). *The Shusha Summit and the signed Karabakh Declaration will further strengthen the unity of the Turkic world.* Retrieved from https://azertag.az/xeber/vuqar_rehimzade_susa_zirve_gorusu_ve_imzalanan_qarabag_beyannamesi_turk_dunyasinin_birliyini_daha_da_guclendirecek-3086198 (In Azerbaijani)
9. Organization of Turkic States. (2024, July 6). *An informal summit of the heads of state of the Organization of Turkic States was held in the city of Shusha, Azerbaijan.* Retrieved from https://www.turkicstates.org/tr/haber/turk-devletleri-teskilati-devlet-baskanlari-gayriresmi-zirvesi-azerbaycanin-susa-kentinde-gerceklestirildi (In Turkish)

10. Takvim.com.tr. (2024, July 6). *'Turkic' summit in Shusha! The Karabakh Declaration was signed.* Retrieved from https://www.takvim.com.tr/dunya/susada-turk-zirvesi-karabag-deklarasyonu-imzalandi-5890223 (In Turkish)

11. Mammadov, R. (2024, July 7). *Weekly program.* Retrieved from https://www.youtube.com/live/a_kK7wFC1jk?si=GR6Rs2hCogRGjkNC (In Azerbaijani)